AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 13/10

Bakı şəhəri 25 sentyabr 2019-cu il

AMEA-nın "Sosial elmlər" jurnalının Redaksiya heyətinin tərkibinin təsdiq edilməsi haqqında

Azərbaycan Milli Elmlər Akademiyasının 17 iyul 2019-cu il tarixli 12/15 nömrəli qərarı ilə AMEA-nın "Sosial elmlər" jurnalı təsis olunmuşdur. Jurnalın fəaliyyətinin təmin edilməsi məqsədi ilə onun Redaksiya heyətinin yeni tərkibinin müəyyənləşdirilməsi zərurəti meydana çıxmışdır.

Qeyd olunanlarla əlaqədar AMEA-nın İctimai Elmlər Bölməsinin vəsatətini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın "Sosial elmlər" jurnalının Redaksiya heyətinin tərkibi təsdiq edilsin (əlavə olunur).
2. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi AMEA-nın müxbir üzvü Əminağa Sadıqov

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ APARATI PROTOKOL ŞÖBƏSİ